# MÜBARİZ KEŞİKDƏ

26 aprel 2018-ci il
Cümə axşamı
№ 16 (3380)
1933-cü ildən çıxır
Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN YENİ TƏRKİBİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:

1.1.Azərbaycan Respublikası Baş nazirinin birinci müavini – Yaqub Abdulla oğlu Eyyubov;

1.2.Azərbaycan Respublikası Baş nazirinin müavini – Əli Cavad oğlu Əhmədov;

1.3.Azərbaycan Respublikası Baş nazirinin müavini – Əli Şamil oğlu Həsənov;

1.4.Azərbaycan Respublikası Baş nazirinin müavini – Hacıbala İbrahim oğlu Abutalıbov;

1.5.Azərbaycan Respublikasının daxili işlər naziri – Ramil İdris oğlu Usubov;

1.6.Azərbaycan Respublikasının energetika naziri – Pərviz Oqtay oğlu Şahbazov;

1.7.Azərbaycan Respublikasının ədliyyə naziri – Fikrət Fərrux oğlu Məmmədov;

1.8.Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri – Sahil Rafiq oğlu Babayev;

1.9.Azərbaycan Respublikasının fövqəladə hallar naziri – Kəmaləddin Fəttah oğlu Heydərov;

1.10.Azərbaycan Respublikasının xarici işlər naziri – Elmar Məhərrəm oğlu Məmmədyarov;

1.11.Azərbaycan Respublikasının iqtisadiyyat naziri-Şahin Abdulla oğlu Mustafayev;

1.12.Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri – İnam İmdad oğlu Kərimov;

1.13.Azərbaycan Respublikasının maliyyə naziri – Samir Rauf oğlu Şərifov;

1.14.Azərbaycan Respublikasının müdafiə naziri – Zakir Əsgər oğlu Həsənov;

1.15.Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri – Ramin Namiq oğlu Quluzadə;

1.16.Azərbaycan Respublikasının vergilər naziri – Mikayıl Çingiz oğlu Cabbarov;

1.17.Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri – Samir Rafiq oğlu Nuriyev;

1.18.Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri – Rövşən Şükür oğlu Rzayev;

1.19.Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi – Elçin İsağa oğlu Quliyev;

1.20.Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi – Mədət Qəzənfər oğlu Quliyev;

1.21.Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi – Orxan Sedyar oğlu Sultanov.

2.Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 21 aprel 2018-ci il.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ



Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfərə gəlib.

Dövlətimizin başçısını Türkiyənin Baş nazirinin müavini Fikri Işık və digər yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət edib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad edib.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə şam ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbirə gələrək məzarını ehtiramla ziyarət edib.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhraman ilə görüşüb.

Aprelin 25-də Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyedə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin Sarayına gəlib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Aprelin 25-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib.

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 21-də Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi və onun Azərbaycan Respublikasının Baş naziri təyin olunması haqqında sərəncamlar imzalayıb.**

## "AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN YENİ TƏRKİBİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2018-ci İL 21 APREL TARİXLİ SƏRƏNCAMINA ƏLAVƏLƏR EDİLMƏSİ BARƏDƏ

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1."Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli 9 nömrəli Sərəncamına əlavə olaraq, aşağıdakı şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri təyin edilsinlər:

1.1.Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri – Muxtar Bahadur oğlu Babayev;

1.2.Azərbaycan Respublikasının gənclər və idman naziri – Azad Arif oğlu Rəhimov;

1.3.Azərbaycan Respublikasının mədəniyyət naziri – Əbülfəs Mürsəl oğlu Qarayev;

1.4.Azərbaycan Respublikasının müdafiə sənayesi naziri – Yavər Talıb oğlu Camalov;

1.5.Azərbaycan Respublikasının səhiyyə naziri – Oqtay Kazım oğlu Şirəliyev;

1.6.Azərbaycan Respublikasının təhsil naziri – Ceyhun Əziz oğlu Bayramov;

1.7.Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri – Hicran Kamran qızı Hüseynova;

1.8.Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri – Fuad Rauf oğlu Muradov;

1.9.Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri – Mübariz Qəhrəman oğlu Qurbanlı;

1.10.Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri – Səfər Məmməd oğlu Mehdiyev;

1.11.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri – Tahir Yaqub oğlu Budaqov;

1.12.Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri – Kərəm Əvəz oğlu Həsənov;

1.13.Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri – Fuad Hümbət oğlu Nağıyev;

1.14.Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri – Qoşqar İlahi oğlu Təhməzli;

1.15.Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi – Vüsal Əfqan oğlu Hüseynov;

1.16.Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi – Arzu Yusif oğlu Rəhimov.

2.Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 23 aprel 2018-ci il.*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Artur Rasi-zadəni qəbul edərək uzun illər dövlət qulluğunda yüksək vəzifələrdə səmərəli fəaliyyət göstərdiyini deyib, Baş nazir vəzifəsində gördüyü işlərə görə təşəkkürünü bildirib.**

***Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub.***

**Aprelin 18-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı aprelin 18-də Bilal Ərdoğanı və Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Baki qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri aprelin 18-də Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul edib.**

❖❖❖❖❖

***Aprelin 18-də Azərbaycan Prezidenti İlham Əliyev Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunda nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Aprelin 19-da ölkəmizin rəhbəri Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Aprelin 20-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həllində səmərəli fəaliyyətinə görə Əli Şamil oğlu Həsənovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Aprelin 20-də dövlətimizin başçısı 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri aprelin 23-də akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin əməkdaşlarına fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib.**

## SABİTLİYƏ, İNKİŞAFA VƏ XOŞBƏXT GƏLƏCƏYƏ VERİLƏN SƏS

Azərbaycan xalqı öz iradəsini ifadə edərək dəstəklədiyi namizədə səs verdi. Bu, seçicilərin ölkəmizdə sabitliyə, inkişafa və xoşbəxt gələcəyə verdiyi səs idi. Ölkəmizin son 15 ildə əldə etdiyi və dünya miqyasında təqdir olunan nailiyyətləri Prezident seçkilərində xalqın seçiminin yenə İlham Əliyev olacağına dair əvvəldən verilən proqnozları tam doğrultdu...

## ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ ETDİLƏR

Aprelin 19-da Dərbənddə Rusiya ilə Azərbaycan arasında sərhəd zonasında daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi üzrə işçi qrupunun növbəti iclası keçirilib...

Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığı ilə ölkəmizin şəhər və rayonlarında şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir...

*Bax səh.2.*

# ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ ETDİLƏR

**Aprelin 19-da Dərbənddə Rusiya ilə Azərbaycan arasında sərhəd zonasında daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

Tədbirdə sərhəd ərazilərin daxili işlər orqanlarının, o cümlədən cinayət axtarışı, narkotiklərin dövriyyəsinə nəzarət, mütəşəkkil cinayətkarlığa və ekstremizmə qarşı mübarizə bölmələrinin rəhbərləri sərhəd zonalarda cinayətkarlığın səviyyəsi və təhlükəsizliyin təmini, ekstremizm, terrorizm və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Rusiya tərəfdən işçi qrupunun rəhbəri, Daxili İşlər Nazirliyinin Şimali Qafqaz Federal Dairəsi üzrə Baş İdarəsinin rəisi Sergey Baçurinin və işçi qrupun Azərbaycan tərəfdən həmsədri, Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirovun çıxışları dinlənilib.

İclasda, həmçinin ekstremizm və terrorizm, mütəşəkkil cinayətkarlıqla mübarizə, irimiqyaslı tədbirlərin keçirilməsi zamanı asayişin qorunması və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər ətraflı fikir mübadiləsi aparıb, sərhədyanı regionlarda ərazi bölmələri arasında əlaqələrin möhkəmləndirilməsinə dair əlavə tədbirlərin görülməsini qərara alıblar.

# BU SAHƏYƏ DƏ CİDDİ DİQQƏT YETİRİLİR

**Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığı ilə ölkəmizin şəhər və rayonlarında şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə səyyar xidmətlər davam etdirilir.**

Bu işin daha da sürətləndirilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə 2018-ci ilin 3 ayı ərzində Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin, şəhər və rayonların polis idarə və şöbələrinin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə 2072 səyyar xidmət keçirilib.

Səyyar xidmətlər zamanı şəxsiyyət vəsiqələri almaq və ya etibarlıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə ümumilikdə 90502 vətəndaşın, o cümlədən yaşı 16-dan aşağı olan 10644 nəfərin sənədləri icraya qəbul edilərək yeni şəxsiyyət vəsiqələri ilə təmin edilib.

Belə tədbirlər zamanı əlil və fiziki qüsurlu insanlar da diqqətdən kənarda qalmayıblar. Polis əməkdaşları ən ucqar kəndlərdə belə onların yaşadıqları ünvanlara gedərək, yeni şəxsiyyət vəsiqəsi ilə təmin etmək üçün müvafiq sənədlərini toplayıblar.

Vətəndaşların şəxsiyyət vəsiqələri ilə təmin edilməsi məqsədilə mütəmadi şəkildə təşkil olunan belə tədbirlər respublikamızın bütün bölgələrində davam etdirilir.

*Natiq Cavadov,*
*polis kapitanı*

# SABİTLİYƏ, İNKİŞAFA VƏ XOŞBƏXT GƏLƏCƏYƏ VERİLƏN SƏS

**Azərbaycan xalqı öz iradəsini ifadə edərək dəstəklədiyi namizədə səs verdi. Bu, seçicilərin ölkəmizdə sabitliyə, inkişafa və xoşbəxt gələcəyə verdiyi səs idi. Ölkəmizin son 15 ildə əldə etdiyi və dünya miqyasında təqdir olunan nailiyyətləri Prezident seçkilərində xalqın seçiminin yenə İlham Əliyev olacağına dair əvvəldən verilən proqnozları tam doğrultdu.**

Şəffaflığın təmini və səsvermə prosesinin obyektiv qiymətləndirilməsi məqsədilə bu taleyüklü aksiyanı izləmək üçün dəvət edilən 900 xarici, 59 minə yaxın yerli müşahidəçi seçki məntəqələrində oldu. Beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən keçirilən "exit-poll"un nəticələri də seçkilərin şəffaf və ədalətli şəkildə keçdiyini təsdiqlədi.

Növbəti dəfə xalqın mütləq əksəriyyətinin səsini qazanan Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçib, beynəlxalq mövqeyini möhkəmləndirib, Cənubi Qafqazın lider ölkəsinə çevrilib.

Xalqın yenidən "İlhamla irəli"ləməyə qərar verməsi gözlənilən idi. Çünki indiki beynəlxalq mürəkkəb zamanda, xüsusən də rəngli inqilabların və bunların nəticəsi olaraq, kənardan müdaxilə ilə hakimiyyətlərin dəyişdirilməsinin qanlı-qadalı fəsadlarının göz qabağında olduğu bir vaxtda Azərbaycan seçicisinin ictimai-siyasi sabitliyə və sosial-iqtisadi inkişafa, sosial rifaha, inamlı gələcəyinə səs verməsi təbiidir. Bu, xalqımızın təkcə "gözü çıxan qardaş"ının vəziyyətindən dərs götürməsi deyildi, bu, həm də bizim sabaha olan inamımızın nəticəsi idi. Həmin inamsa boş yerdən yaranmır, illərin sınağından çıxır.

Prezident seçkisindən iki gün əvvəl Nazirlər Kabinetinin cari ilin ilk rübü üzrə ölkənin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir və son göstəricilər də dövlət başçısı tərəfindən elə həmin iclasda səsləndirilmişdir.

"Mən dəfələrlə demişəm ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır"- deyən möhtərəm dövlət başçımız Azərbaycanın cari ilin ilk rübü üzrə makroiqtisadi göstəricilərini yüksək qiymətləndirmişdir: "Birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Bu, çox yaxşı göstəricidir və dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir".

Ümumiyyətlə, qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə həyata keçirilən tədbirlər hələ neftin qiymətinin pik vaxtından başlamışdır və bu, təsadüfi deyildi. İqtisadiyyatı bütünlüklə bu başıbəlalı sahədən asılı olan ölkələrin düşdükləri böhranlı vəziyyət göz qabağında idi. Özü də vəziyyəti tündləşdirib neftin rənginə çevirən bu böhran həmin ölkələrdə təkcə sosial-iqtisadi sahələrə zərbə vurmamışdır. O həm də qəfil yaxaladığı ölkələrin ictimai-siyasi sabitliyini pozmuşdur. Məhz bu səbəbdən istər neftin yüksək qiymətinə, istərsə də zəngin ehtiyatlarına bel bağlamaq olmazdı və Azərbaycan da məhz belə etdi. Odur ki, dövlət başçısı cənab İlham Əliyevin sosial-iqtisadi məsələlərə həsr olunan bütün tədbirlərdəki çıxışlarında qeyri-neft sektorunun inkişafını xüsusi vurğulaması təsadüfi deyil.

Elə bu yerdə qeyri-neft sektoruna aid başqa bir diqqətçəkən fakt: İlin birinci rübündə ölkə üzrə sənaye məhsullarının istehsalı 2, o cümlədən qeyri-neft sənaye məhsulları istehsalı 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bu gün Azərbaycanda avtomobil və kənd təsərrüfatı texnikasından tutmuş, tikinti materiallarınadək istehsal olunur, eyni zamanda, "Made in Azerbaijan" brendi ilə ixrac edilir.

İlin ilk rübündə ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalı 4,2 faiz artmışdır.

Düzdür, artım, əsasən, bitkiçilik məhsulları istehsalı üzrədir və yalnız hesabat dövründə o, təxminən 50 faiz olmuşdur. Amma heyvandarlıqda da dönüşün yaranacağına şübhə yoxdur. Ən azından həmin sahəyə ilbəil artan diqqət və sərmayə belə qənaətə gəlməyə əsas verir.

Cari ilin yanvar-mart aylarında Azərbaycan iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulmuşdur və onun böyük hissəsi xarici investisiya olmuşdur. Prezident sözügedən iclasdakı nitqində bu fakta belə qiymət vermişdir: "Bu onu göstərir ki, ölkəmiz xarici investorlar üçün çox cəlbedicidir".

Həqiqətən, dünyada baş verən bütün iqtisadi çaxnaşmalara və maliyyə böhranlarına baxmayaraq, Azərbaycan 1994-cü ildən üzü bəri xarici investorlar üçün cəlbedici ölkə olmuşdur və bu gün də belədir. Səbəbləri məlumdur və onlar həm yerli, həm də xarici mütəxəssislər, qurumlar, reytinq agentlikləri tərəfindən dəfələrlə qeyd edilərək qiymətləndirilib. Əks halda Azərbaycan qlobal dünya və regional layihələrin reallaşmasında nəinki əsas və aparıcı ölkə kimi, heç sıradan biri kimi də iştirak edə bilməzdi. Halbuki məhz həmin layihələrin hesabına bu gün Azərbaycanın valyuta ehtiyatları 44,2 milyard dollara çatıb. Yeri gəlmişkən, təkcə cari ilin 3 ayında ehtiyatlarımız 2,2 milyard dollar artmışdır.

Həm də uğurlu neft siyasəti təkcə valyuta ehtiyatlarının artması ilə nəticələnmir. Elə yalnız birinci rübdə 31 min, ümumilikdə 2004-cü ildən təxminən 1,5 milyon daimi iş yerinin açılması, həmçinin maaşların, təqaüdlərin, sosial ödənişlərin vaxtaşırı artırılması da Azərbaycanda həyata keçirilən düşünülmüş neft siyasətinin, iqtisadi strategiyanın uğurlu göstəriciləridir: "Bu addım bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İmkan yarandıqca biz dərhal birinci addımı sosial istiqamətdə atırıq",- deyən möhtərəm Prezident növbəti 7 ildə də bu siyasətin davam edəcəyinə mesaj vermişdir.

*Publisistika bölməsi*

# XALQ-İQTİDAR BİRLİYİ
## BUDUR, UĞURLARIMIZIN, İNKİŞAFIN ƏSAS ŞƏRTİ!

**Çoxdan idi ki, bu mövzuda yazmaq istəyirdim. Buna görə müxtəlif xəbər saytlarında, sosial şəbəkələrdə yayımlanan, bəzən adi etik qaydalara sığmayan, əndazəni aşan tərbiyəsizliklə müşahidə olunan, aşırı həyasızlıqla və görməmişliklə, canıyananlıqla çulğalaşmış audio və videomaterialları, şərhləri, tvit və mesajları oxumaq, ürək istəməsə də ən azından mövzuya bələd olmaq baxımından, əsasən, belə neqativ yüklü məlumatları gözdən keçirmək məcburiyyətində qalırdım. Nə qədər ürəkbulandırıcı olsa da bir neçə əsr ərzində demokratiyanın, insan haqlarının əlifbasının təməlinin qoyulduğu, kərpic-kərpic qurulduğu "köhnə qitə"nin azman dövlətlərində, indiki demokratik, azad, söz və ifadə azadlığının intişar etdiyi Avropanın əsas söz sahibləri olan İngiltərə, Almaniya və Fransanın paytaxtlarından virtuoz bir drijor çubuğunun sehrli hərəkəti ilə başı və daşı özümüzdən olan bəzi soydaşlarımızın fəal iştirakıyla üzərimizə axan bu söyüş, və iftira selinin nədən qaynaqlandığını anlamaq istəyirdim.**

Bəzən sadəlövhcəsinə güman edirdim ki, yox, çoxəsrlik demokratik təcrübəyə, yüksək ictimai şüur və səviyyəyə malik həmin ölkələrin ən müxtəlif dövlət təsisatları, partiyalar, QHT təmsilçiləri, yaxud insan hüquq və azadlıqları üzrə ixtisaslaşmış təşkilatlar mayası, min təəssüf ki, ölkəmizdə yoğrulsa da qayəsi Avropanın dolanbac küçə və yollarında korlanmış bəzi naxələf övladlarımızın anti-Azərbaycan, anti-dövlət anomaliyasına, dövlətin təmsilçilərinə və onların ailə üzvlərinə qarşı yönəlmiş, hətta ağlasığmaz hədləri də aşmış bu söyüş, təhqir stixiyasının, ədəbsizlik kampaniyasının qarşısını almaq üçün hərəkətə keçəcək, belə ciddi-cəhdlə sürdürülən ritorikaya "dur" deyəcək. Lakin min leyk-əfsus ki, işləri tərsə düşən, qeyri-qanuni hərəkətlərinin qarşısı ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alındığı zaman Avropa strukturlarının qapıları ağzında müticəsinə, boynubükük vəziyyətdə duran, xaricdə özlərini "mühacirlər", ölkə daxilində isə "milli demokratlar" adlandıran bu cameəni qızışdırıb ölkəmizə qarşı virtual söyüş savaşı açmağa, daşıdıqları natamamlıq kompleksi səbəbindən hakimiyyət mənsublarına öz aləmlərində qurşaqdan aşağı zərbələr endirməyə təhrik edən qüvvələr də nə qədər qəribə və təəccüblü olsa da elə məhz "köhnə qitə"nin "müasir" düşüncəli demokratlarıdır. Bu da dünyanın ən müxtəlif qitələrində, bölgələrində demokratiya adıyla milyonlarla sadəlövh insanın beynini dumanlandırmış, insan hüquqlarının, qanunun aliliyinə əsaslanan ədalətli, azad, demokratik cəmiyyət quruculuğu bəhanəsilə vətəndaşları öz adət-ənənlərinə, çoxəsrlik mədəniyyətlərinə, tarixlərinə qarşı çıxaraq son nəticədə onları vətəndaş qarşıdurmasına sövq edir, dağıdılaraq məhv edilmiş qədim mədəniyyətlərin, sivilizasiyaların əsasında xaos, idarəolunan anarxiya və sözəbaxan, ələbaxan rejimlər yaradır, işğal olunmuş və ya vassala çevrilmiş guya müstəqil dövlətlərin əli ilə sonuncuların təbii ehtiyatlarını yamğalayır, insani resurslarını, əqli mülkiyyətini mənimsəyərək özünküləşdirməyə çalışırlar.

Dünyanın yenidən bölüşdürülməsinə, təbii sərvətlərlə zəngin ölkələrin ram edilərək yenidən istismarına hesablanmış bu mənhus kampaniyanın hədəflərindən biri, heç şübhəsiz ki, Qafqaz regionu, onun açar ölkəsi olan, orta əsr istilahları ilə desək, "alınmaz qalası" sayılan Azərbaycan da vardır. Sirr deyil ki, ulu öndərin ali hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycanda sözəbaxan, oyuncaq bir rejimin qurulmasında maraqlı olan, digər ələbaxan Afrika, Latın Amerikası, Asiya ölkələri kimi respublikamızın da təbii sərvətlərini sümürüb dünya bazarlarına daşımaq qəsdilə neokolonial siyasət yeritmək niyyətində olan qüvvələr illər uzunu ən müxtəlif bəhanələrlə, əsasən də özlərinin hər addımbaşı tapdaladıqları demokratik prinsiplər, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması adı altında daha çox neft, qazla zəngin dövlətlərin işlərinə müdaxilə etməyə, onların müstəqil daxili və xarici siyasət aparmalarına hər vəchlə maneçilik törətməyə çalışır, öz təsir dairələrində olan çeşidli beynəlxalq təşkilatlar, daxildə və xaricdə bu məqsədlə hazırlanan, xüsusi təlimatlandırılan və maliyyələşdirilən, "beşinci kalon" qismində istifadə olunan "milli demokratlar" və "siyasi mühacirlər" vasitəsilə çaxnaşma, vətəndaş qarşıdurması, xaos yaratmağa səy göstərirlər. Son 5-6 ildə bunun Şərqi Afrikanın, Yaxın Şərqin müsəlman ölkələrinə hansı fəlakətləri və bədbəxtlikləri gətirdiyinin biz bu gün əyani şahidləriyik.

Çox şükürlər olsun ki, ulu öndərin məqsədyönlü, balanslaşdırılmış, milli maraqlarımıza cavab verən strategiyasını Azərbaycan Prezidenti cənab İlham Əliyev özünəməxsus diplomatik incəliklə, müdrikcəsinə yürüdərək olduqca həssas dönəmdən keçən beynəlxalq münasibətlər sistemində bloklara qoşulmama siyasətini uğurla aparır, iqtisadiyyatımızın, siyasi və hərbi qüdrətimizin daha da artırılması istiqamətində möhtəşəm fəaliyyət ortaya qoyur. Təbii ki, dövlət başçımızın heç bir dövlətdən və ya təşkilatdan asılı olmayaraq, qürurlu şəkildə və ləyaqətlə apardığı, yalnız ölkəmizin milli maraqlarının təmin olunmasını nəzərdə tutan belə müstəqil siyasət yürütməsi məlum güclərin xoşuna gəlmir.

**Ardı var.**

*Orxan Mansurzadə,*
*polis polkovniki*

# HİSSLƏRİNİ BELƏ İFADƏ EDİRLƏR



**Günü-gündən dəyişən dünyamızda xilaskarlıq missiyasını da layiqincə yerinə yetirən polislərimizə hər gün, hər an daha çox ehtiyac duyuruq. Sabitliyin hökm sürdüyü ölkəmizdə polisin fəaliyyətini soydaşlarımızla yanaşı ölkəmizə gələn turistlər, burada çalışan əcnəbilər də təqdir edirlər.**

Yaşamaq, qurub-yaratmaq üçün yaradılan şəraitin inkişafa səbəb olması danılmazdır. Ölkəmizdə insanların hüquq və azadlıqlarını qorumaq dövlətin bütün qurumlarının təməl prinsipidir, xüsusən də sabitliyin, asayişin qoruyucularından olan polisimizin.

Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, müraciətlərə həssaslıqla yanaşılması da daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir.

Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün vətəndaşlardan təşəkkür məktubları daxil olur. Bir neçəsi ilə sizi də tanış edirik.

**Bakı şəhər sakinləri - Yeganə Əkbərova, Kənan Hüseynov, Ələkbər Abdullayev və Çingiz Əkbərov** şikayət ərizələrinə tez bir zamanda baxılaraq, problemlərin həllini tapdığına görə minnətdarlıq edirlər.

**Gəncə şəhər sakini Vüqar Zeynalov və Kürdəmir rayon sakini Laçın Cabbarov** məktublarında ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirirlər.

**Bakı şəhər sakini Surə Ağayeva və Ağcabədi rayon sakini Cavid Zülfəliyev** baş vermiş oğurluq hadisəsinin üstünün qısa müddətdə açılmasına görə razılıq edirlər.

**Bakı şəhər sakini Hüsniyyə Şirinova** isə hüquqlarının qorunmasında ona göstərilən köməyə görə minnətdarlığını bildirir.

**Astara rayon sakini Rahim Musayev** məktubunda əlil bacısına yaşadığı ünvanda səyyar xidmət göstərərək şəxsiyyət vəsiqəsi verildiyinə, **paytaxt sakini Gülzarə Məmmədova** qızıl-zinət əşyasını alıb qaçan soyğuncunun qısa müddətdə tapılaraq istintaqa təhvil verilməsinə görə təşəkkür edirlər.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# 70-in SEVİNCİ VƏ KƏDƏRİ...



**Adını veteranlarla bağlı keçirilən tədbirlərin birində eşitdim. “Köhnə rəislərdəndir”,- dedilər. Düzü, soyadı daha çox diqqətimi çəkdi: “Şahkərəmov”. Sonradan onu tanıyanlardan, bilənlərdən soraqlaşdım. Bu dəfə “köhnə kişilərdəndir” cavabını eşitdim. Telefon nömrəsini tapdım. Görəsən, yaxın vaxtlarda onunla mətbuat nümayəndələrindən kimsə hal-əhval tutubmu, haqqında nəsə yazıblarmı?**

Elə bu fikirlərlə də zəng vurdum...

*-Salaməleyküm.*

*-Əleykümsalam.*

*-Ağaisa müəllimi olarmı?*

*-Buyurun, eşidirəm.*

***-Cənab polkovnik, elə bilirdiniz ki, təqaüdə çıxdıqdan sonra sizi arayıb-axtarmayacağıq? Onu bilin ki, dünən olduğu kimi, bu gündə bizim hər birimizin sizin kimi dəyərli insanlara ehtiyacı var. Üstəlik, siz “Mübariz keşikdə”nin köhnə dostlarındansınız.***

Hiss etdim ki, bir anlıq da olsa ötən illər gözündən işıq sürəti ilə gəlib keçdi.

***-Ay bala, qadasın aldığım, sağ olsunlar, axtaran da var, itirən də…***

Onun sonuncu kəlmələrində bir kövrəklik hiss etdim. Lap Hüseyn Arif demiş:

***Axtar babaları, axtar Hüseyn,***
***Bir gün də nəvələr axtarar səni…***

Qapını özü açdı. Diqqətimi həyətdə cərgə ilə əkilmiş ağaclar çəkdi. Sanki çiçəkdən ağappaq gəlinlik geyinmişdilər. “Özüm əkmişəm bu ağacları”,- dedi.

Onu hamı tanımasa da yaşıdları, dadına çatdıqları, məsləhət verdikləri, elə işlədiyi rayonların sakinləri yaxşı tanıyırlar. Adının da, xidmətinin də sambalını qoruyan adamdı **təqaüddə olan polis polkovniki Ağaisa Şahkərəmov.**

Əliqabarlı Hətəm kişinin ailəsində 1948-ci il aprelin 7-də Hacıqabulda dünyaya göz açıb. Ailədə on uşaq olublar. Atası yazı-pozu bilməsə də çalışıb ki, övladlarına savad versin. Gələcəyin polkovniki qoyunquzu otarsa da, kəndin hər çətinliyini görsə də, kitab əlindən düşməyib. Orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Pedoqoji İnstitutunun Tarix fakultəsinə verib. Lakin qəbul olunmayıb, hərbi xidmətə gedib. Təxris olunduqdan sonra bir el ağsaqqalının məsləhətilə sənədlərini Əli Bayramlı Şəhər Daxili İşlər Şöbəsinə təqdim edib. Beləcə, xidmətdə ilk qədəmlərini atıb. Oxumaq, təhsil almaq, gələcək hədəflərinə çatmaq üçün 1971-ci ildə sənədlərini N.Rzayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə verib. Məktəbi əla qiymətlərlə başa vurub. 1975-ci ildə ali hüquq təhsli almaq üçün Rostova yola düşüb…

Bu yerdə maraqlı bir məqamı diqqətinizə çatdırmaq istəyirəm. Aradan uzun illər keçsə də yaddaşının köməyinə gəlməsi məni valeh etdi. O, Rostovda oxuyarkən dostu ilə kirayədə qaldığı evin ünvanını çox rahatca dedi: **“Rostov, Budyonovski 2, mənzil 5”...**

Təhsilini başa vurub yenə doğma şəhərə qayıdıb. Bir neçə il müxtəlif xidmətlərdə işləyib. Sonra Salyanda, Neftçalada, Biləsuvarda, Lənkəranda, Şəmkirdə əməliyyat işləri üzrə rəis müavini olub. 1995-ci ildə Biləsuvara rəis təyin olunub. Sonra Masallıda, Ağsuda rəis kimi xidmət edib. 2004-cü ildə təqaüdə çıxıb. Təcrübəsinə, peşəkarlığına bələd olan DİN rəhbərliyi Polis Akademiyasında dərs demək üçün onu yenidən sıralarımıza qaytarıb. Düz iki il burada “DİO-da əməliyyat-axtarış fəaliyyəti” kafedrasında gənc polislərlə təcrübəsini bölüşüb. Binəqədi Rayon İcra hakimiyyətində, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində də çalışıb...

Mənə elə gəldi ki, onun səsi həmişə belə kövrək olub. O, əsl ruh adamıdır. Ömür yoluna nəzər salanda Şahmar Əkbərzadənin bu misraları gözlərimin önündən keçir:

***Alın yazısından qaçmayıb heç kim,***
***Sitəmə sinə gər, qəmə qələm çək!***
***Yediyin sillələr, qorxma, əzizim,***
***Şəninə əskiklik gətirməyəcək...***

Oğul-qız, nəvə sahibidir. Polisdən xoş bir söz eşidəndə ürəyi uçunur. Deyir ki, bu gün ölkə və DİN rəhbərliyinin diqqət və qayğısını xidmətdə və təqaüddə olan hər bir polis kimi o da öz üzərində hiss edir. Bu diqqət, bu qayğı ömrün ağrılı-acılı günlərini az da olsa unutdurur.

Xüdahafizləşəndə isə bunları dedi: **“Şərəfli, qüsursuz xidmət edib, sağ-salamat təqaüdə çıxıb, çəkdiyiniz zəhmətin bəhrəsini görəsiniz”…**

Bizim isə ona deməyə sözümüz budur:

***Heç əlinə alma əsa,***
***Yetmişində batma yasa.***
***Kim ki, yüz il yaşamasa,***
***Təqsir onun özündədir…***

***Hafiz Təmirov, polis mayoru***

# QAZAXDAN GƏLİRİK...

Yayın qızmarında, qışın şaxtasında da cinayət hadisələrinə dərhal reaksiya vermək, hüquqazidd əməlləri törədən şəxslərin yerindəcə zərərsizləşdirilməsi onların ən ümdə vəzifəsidir. Elə dara düşəndə də ilk dada çatan da onlardılar.

Qazaxda ezamiyyətdə olarkən Post-Patrul Xidməti əməkdaşlarının öz vəzifə borclarının öhdəsindən layiqincə gəldiklərinin bir daha şahidi olduq. Sakinlərlə söhbət zamanı da deyilən xoş sözləri eşitmək belə gözəl, abad, necə deyərlər, asayişin tam təmin olunduğu bölgədə ürəyimizi oxşadı.



***Qazax RPŞ Post-Patrul Xidməti əməkdaşları-bölük komandiri, polis kapitanı Vüsal Sadıqov, polis leytenantı Qulu Mərdanov, polis serjantları- Xalıq Yusifov və Süleyman Şirinov, həmişə olduğu kimi, yenə də ayıq-sayıqdırlar.***

***Foto və mətn Üzeyir Muradovundur***

# YOL POLİSİ GÖRÜŞLƏRƏ GEDİR

## Təhlükəsizliyi təmin etmək üçün

**Uşaqları qorumaq hər birimizin borcudur, çünki onlar cəmiyyətin gələcəyidir. Uşaqların təhlükəsizliyi üçün əsas məsuliyyəti isə biz böyüklər daşıyırıq. Yanlarında olmadığımız zaman belə, verdiyimiz məsləhətlər və şəxsi nümunəmiz onları təhlükələrdən qoruyur.**

Yol hərəkəti qaydalarının uşaqlara öyrədilməsində bağçada, məktəbdə müəllimlərin, evdə və yollarda isə valideynlərin üzərinə böyük məsuliyyət düşür. Böyüklər müxtəlif vasitələrlə uşaqların yol hərəkəti qaydalarını öyrənməsinə, yol təhlükəsizliyi ilə bağlı maariflənməsinə çalışmalıdır.

Uşaq və yeniyetmələrin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin qarşısının alınması, piyadaların intizamının artırılması, küçə hərəkəti qaydalarının öyrədilməsi və təhlükəsiz davranış vərdişlərinin aşılanması məqsədilə mütəmadi olaraq paytaxtda və respublikamızın ayrı-ayrı rayonlarında təhsil müəssisələrində, uşaq bağçalarında təhsil işçilərinin, valideynlərin, ictimai qurumların nümayəndələrinin, KİV təmsilçilərinin iştirakı ilə maarifləndirmə tədbirləri həyata keçirilir. Polisin əsas məqsədi yollarda uşaqların həyat və sağlamlığının müdafiəsini təmin etmək, onları bu istiqamətdə bilgiləndirməkdir.

Bu ilin ilk 3 ayında da yol polisi əməkdaşları tərəfindən orta məktəblərdə, uşaq bağçalarında yüzlərlə belə görüş keçirilib. Görüşlərdə şagirdlərə yol hərəkəti qaydalarına əməl etmək və piyada keçidlərindən düzgün istifadə etmək barədə tövsiyələr verilib, bu mövzuda hazırlanmış videoçarxlar nümayiş etdirilərək hər biri ətraflı izah edilib. Bağçalarda uşaqlara yolu təhlükəsiz keçmə üsulları əyani olaraq göstərilib, piyadanın vəzifələri barədə ilkin təsəvvür yaradılıb, onların başa düşəcəyi formada yol hərəkəti qaydaları haqqında ətraflı məlumat verilib, indidən onlarda küçə, yol, səki, işıqfor barəsində ilkin anlayışlar formalaşdırılıb. Eyni zamanda, məktəbliləri maraqlandıran suallar cavablandırılıb, uşaqlar yol hərəkəti nişanları və nəqliyyat növlərinə aid şeirlər səsləndirib, mahnılar ifa ediblər.

Çıxışlarda sonradan xoşagəlməz halların yaşanmaması üçün həm sürücü, həm piyada, həm də sərnişin kimi qaydalara əməl etməyin vacibliyi, ibtidai sinif şagirdlərinin dərsə gedərkən və qayıdarkən valideyn nəzarətinin önəmi, sürücülərin və valideynlərin xüsusilə təhsil müəssisələrinin yaxınlığındakı yollarda maksimum diqqətli olmaları, yeraltı və yerüstü, nizamlanan və nizamlanmayan piyada keçidlərindən istifadənin zəruriliyi diqqətə çatdırılıb.

***Natiq Cavadov, polis kapitanı***

# ELAN

**DİN-in əmri ilə Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar martın 15-dən aprelin 30-dək daxili işlər orqanlarının əməkdaşları arasında “Ən yaxşı polis sahə inspektoru”, “Ən yaxşı polis sahə rəisi”, “Ən yaxşı əməliyyat müvəkkili”, “Ən yaxşı təhqiqatçı”, “Ən yaxşı müstəntiq”, “Ən yaxşı tağım komandiri”, “Ən yaxşı polis nəfəri” müsabiqəsi keçirilir.**

**Nazirliyin orqan və hissələrinin rəisləri, nizami polis hissələrinin komandirləri xidmətdə fərqlənən, qüvvədə intizam tənbehi olmayan, aidiyyatı nominasiyalar üzrə yüksək peşə hazırlığına və xidmət sahəsi üzrə azı 3 il ümumi staja malik əməkdaşlar arasından ən layiqlisini seçib, onun barəsindəki xasiyyətnaməni xidməti, döyüş və fiziki hazırlıq göstəricilərini əks etdirən rəylə birlikdə Mərkəzi Müsabiqə Komissiyasına təqdim olunması üçün Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

***Daxili İşlər Nazirliyi***

# İLİN İLK 3 AYINDA

**Baş İctimai Təhlükəsizlik İdarəsi və şəhər, rayon polis orqanları tərəfindən qanunsuz ovun, mülki silahın daşınması qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə respublikanın şəhər və rayonlarında mütəmadi tədbirlər həyata keçirir.**

Bu ilin ilk 3 ayında keçirilmiş tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin 272.3-cü (ov qaydalarının pozulması) və 590-cı (mülki silahın və ya döyüş sursatının saxlanılması və daşınması qaydalarının pozulması) maddələrinin tələblərini pozmuş 240 nəfər barəsində inzibati protokol tərtib olunub, 26 min manata yaxın cərimə tətbiq edilib.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 252-ci (meşəqırma fondundan istifadənin, oduncağın tədarük edilib daşınması qaydasının pozulması) və 253-cü (meşə sahələrində və meşə fonduna daxil olmayan sahələrdə ağacların, kolların və digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi), zədələnməsi və ya məhv edilməsi) maddələrinin tələblərini pozmuş 10 nəfər barəsində inzibati tədbir görülüb, 15 nəfər barəsində isə Cinayət Məcəlləsinin 259-cu (qanunsuz ağac kəsmə) maddəsi ilə cinayət işi başlanılıb.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

***C.Natiq***

# TƏLİM KEÇİRİLİR



**Bu günlərdə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Bakı Şəhər Baş Polis İdarəsinin, ərazi polis orqanlarının və Metropolitenin Mühafizəsi üzrə Polis Şöbəsi əməkdaşlarının birgə təlim toplantısı keçirilib.**

İl ərzində davam edəcək təlim müddətində İdman Cəmiyyətinin təcrübəli əməkdaşları fiziki hazırlıq məşğələlərinin səmərəsinin artırılması üçün məsləhətlər verəcəklər.

İdmanın təşkili bölməsinin əməkdaşı, respublikanın Əməkdar məşqçisi Hikmət Hacıyev silahsız özünü müdafiə üzrə təlimlərin aparılmasının başlıca prinsiplərini açıqlayıb, hər bir polisin müvafiq proqrama yiyələnməsinin əhəmiyyətindən danışıb.

***M.Xəyalə***

# MARAQ DÜNYASI



### SÜNİ İNTELLEKT

"Süni intellekt sistemləri 10-15 il sonra insanı əvəz edəcək". Bunu Qabaqcıl Tədqiqatlar Fondunun informasiya araşdırmaları istiqamətinin direktoru Serqey Qarbuk bildirib. “Alim artıq məsələlərin həllinin effektivliyi üzrə insandan geri qalmayan süni intellekt sistemlərinin (məsələn, sifətin və insan səsinin tanınması) yaradıldığını söyləyib.

Almaniyanın Passau Universitetində mürəkkəb intellektual sistemlər kafedrasının rəhbəri Born Şuller süni intellektin 10 il sonra şeir yaza biləcəyini qeyd edib.

### BEYNİNDƏ... DİŞ

Türkiyənin Sinop şəhər sakini 26 ildir ki, beynindəki dişlə yaşayır.

Dəniz Mizraqlı adlı musiqiçi 4 il əvvəl səhhəti ilə bağlı xəstəxanaya müraciət edərkən beynində şiş və diş olduğu məlum olub. Şiş əməliyyatla götürülsə də, diş hələ də qalmaqdadır. Buna səbəb həkimlərin beyindəki dişin götürülməsindən sonra yaranan fəsadlardan ehtiyat etmələridir. Belə ki, hələ ana rəhmindəykən D.Mizraqlının beynində əmələ gələn dişin əməliyyatla xaric edilməsi nəticəsində gəncin görmə, danışma və hərəkət etmədən məhrum olma təhlükəsi var.

Şişin xaric edilməsindən sonra özünü yaxşı hiss etdiyini deyən musiqiçi risk səbəbindən dişin götürülməsinə etiraz edib.

### “AĞILLI FIRÇA ”

İsveçin “FOREO” şirkətinin süni intellektlə təchiz edilən diş fırçası satışa çıxarılıb. “ISSALEXA” adlandırılan fırça dişləri təmizləməklə yanaşı, bir sıra əlavə faydalı funksiyalara malikdir. Belə ki, dişləri təmizləyərkən ağız suyunun tərkibini tədqiq edir. Onun tərkibində stres hormonunun miqdarı yüksəlibsə, qurğu öz sahibi ilə söhbət etməyə başlayır. Bundan başqa, “ağıllı fırça” sahibinə dişlərini vaxtında təmizləməyi xatırladır.




Su keçirməyən səthə malik olan fırça USB vasitəsilə enerji toplayır. İstehsalçılar bildiriblər ki, bir dəfəyə toplanan enerji 365 gün istifadə üçün kifayət edir.

### ROBOT-RƏSSAM

İtaliyanın “Carlo Ratti Associati” şirkəti avtonom rejimdə şaquli divarlara şəkil çəkən robot-rəssam təqdim edib. Bu qurğu alıcıları cəlb edə bilməyən uçan dron-rəssamı əvəzləmək üçündür.




“Scribit” son dərəcə sadə və təhlükəsizdir. Bu, iki kabel vasitəsilə adi çərçivəyə və ya birbaşa divara asılan kiçik alüminium platformasıdır. Robot divarın səthində koordinatlar üzrə hərəkət edərək müxtəlif şəkillər çəkir.

Robotun daxilində müxtəlif rəngli dörd marker və səhvlərin silinməsi üçün rezin yerləşdirilib. “Scribit” smartfona yüklənmiş xüsusi proqram vasitəsilə idarə olunur. İstifadəçi robotun nəyi çəkməli olduğunu və onun təsvirin hüdudlarından kənara çıxmaması üçün şəklin parametrlərini təyin etməlidir.

***Çingiz Şıxverdiyev***

# DÜNYANIN GÖZÜ YENƏ BAKIDA-
## FORMULA 1 AZƏRBAYCAN QRAN-PRİSİNDƏ



### AZARKEŞLƏRƏ GECƏLƏMƏ İMKANI

Möhtəşəm yarış həyəcanının üçüncü dəfə Bakıya qayıtması ilə hadisələrin mərkəzində yer alan "Hilton Baku" ənənəsini davam etdirir. Yarışın texniki təftiş marşalları oteldə yeni istifadəyə verilmiş "McLaren"in otağında yaradılan şəraitlə tanış olublar.

2005-ci ildən etibarən, "McLaren" komandasının tərəfdaşı olan bu otel iştirakçı komandaya "ikinci ev" kimi xidmət göstərir. Təsadüfi deyil ki, 60-ı yarışların keçirildiyi 17 ölkədə olmaqla ümumilikdə 5200-dən artıq oteldən ibarət şəbəkəsi olan "Hilton" ilə "McLaren" arasında əməkdaşlıq gündən-günə güclənir.

Ötənilki uğurun davamı olaraq, "Hilton Baku" bu il də komanda ilə birgə "McLaren" dizaynlı otaq hazırlayıb. Otağın tərzi "McLaren"in pilotları – Stoffel Vandorndan və ikiqat dünya çempionu Fernando Alonsodan ilhamlanaraq yaradılıb. Otaqdan Bakıya və təqvimdəki ən sürətli şəhər trekinə mənzərə açılır.

Bəzədilməsində istifadə olunan dəyərli xatirə əşyaları isə birbaşa "McLaren" komandasının Böyük Britaniyadakı mənzil-qərargahından gətirilib. Bura komandanın yeni rəngləri və dizaynını özündə əks etdirən pilot geyimləri və dəbilqələr, "Pirelli" yarış təkərləri və sükan, – bir sözlə, çox az sayda insanın yaxından görə bildiyi, daha azının isə toxuna bildiyi əşyalar aiddir.

"McLaren"in otağı 73 milyondan çox üzvü olan "Hilton Honors" loyallıq proqramının rəsmi internet səhifəsində hərraca çıxarılıb. Qonaqlardan biri 110 min xallıq ən yüksək təklifi edərək bu unikal otağı icarəyə götürüb.

Qaliblər yarış günlərində həm bu xüsusi dizaynlı otaqdan, həm də pəncərədən Bakı şəhər halqasına açılan möhtəşəm mənzərədən zövq ala biləcəklər.

### İLK DƏFƏ BAKIDA STARTA ÇIXACAQ

Sergey Sirotkin Formula 1-in pilotu kimi ilk dəfə Azərbaycan Qran-Prisində starta çıxacaq. Lakin o, artıq burada GP2 və Formula 2-də dörd yürüş keçirib. 2016-cı ildə o, podiuma iki dəfə qalxıb, 2017-ci ildə isə travma almış Aleksandr Elbonu bir mərhələdə əvəz edərək finişə 10-cu və 4-cü çatıb.

S.Sirotkin Bakı trasının özünəməxsusluğundan danışaraq deyib: "Bu trasda istənilən səhv ya toqquşmaya, ya ciddi vaxt və mövqe itkisinə gətirib-çıxarar. Ona görə də burada nəzəri maksimuma çatmağa can atmamaq, lakin trasda konkret şəraitdə maksimum nəticəyə nail olmaq daha vacibdir. Kim özünə arxayındırsa, dövrə-dövrə yeni rezervlər axtara bilər.

Hamar örtük səbəbindən yürüş vaxtı ön



təkərlərin, yaxud əyləcin qızması ilə bağlı çətinlik yarana, habelə arxa təkərlərin həddən artıq qızması nəticəsində mikrosürüşmələr və sürətdə çoxsaylı artıb-azalma baş verə bilər".

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# ELAN
## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**
1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

Rusiyanın daxili işlər naziri Vladimir Kolokoltsev aprelin 16-da insanların xilası üçün öz həyatlarını riskə atan şəxsləri təltif edib. Onların arasında azərbaycanlı da olub.

Polis polkovniki Aydın Qəmbərov həmin gün iş başında olmasa da, məktəblinin suya düşməsini eşidəndə dərhal hadisə yerinə gedib. "Bir oğlan suya düşmüşdü, mən üzü üstə uzandım, tanışım kömək edirdi. Polis olduğum üçün həmişə insanlara kömək etməyi özümə borc bilirəm", - Aydın Qəmbərov deyib.

A.Qəmbərov göstərdiyi cəsarət və fədakarlığa görə təltif edilib.

*****

***Gürcüstanın Daxili İşlər Nazirliyi ümumi dəyəri 1,5 milyon ABŞ dolları***




***olan 400 kiloqramdan çox narkotik və psixotrop maddəni qanunsuz dövriyyədən çıxararaq məhv edib.***

***Daxili işlər naziri Giorgi Qaxariya jurnalistlərə açıqlamasında bildirib ki, ölkədə cinayətkarlığın və xüsusən də narkotiklərin qanunsuz dövriyyəsinin qarşısını almaq, ictimai sabitliyi və təhlükəsizliyi möhkəmləndirmək məqsədilə xüsusi layihə hazırlanıb. Bu layihə bir çox ölkələrin təcrübəsinə əsaslanaraq hazırlanıb.***

***Nazir qeyd edib ki, Gürcüstan narkotiklərə qarşı mübarizə sahəsində qonşu ölkələr, o cümlədən Azərbaycan ilə sıx və səmərəli əməkdaşlıq edir.***

*****

Rusiya Daxili İşlər Nazirliyi 2018-ci ildə polis əməkdaşlarının məzuniyyətlərini hansı xarici ölkələrdə keçirə biləcəyi ilə bağlı siyahını açıqlayıb. Artıq bununla bağlı daxili işlər naziri Vladimir Kolokoltsev 2017-ci ilin dekabrında müvafiq sərəncam imzalayıb. Sənədə əsasən, rusiyalı polislər 2018-ci ildə dünyanın 30 ölkəsində istirahət edə bilərlər ki, Azərbaycan da bu ölkələr sırasındadır. Azərbaycan digər növ istirahətlərlə yanaşı, həm də dəniz istirahəti üçün məsləhət bilinən ölkələr sırasındadır.

Rusiya Turist Operatorları Assosiasiyası da bildirib ki, Azərbaycanda həm dəniz, həm dağ, həm də digər növ turizm imkanları mövcuddur.

*****

***Cənubi Uels polisi "WhatsApp" vasitəsilə 11 nəfərin narkotik satıcısı olduğunu sübut edə bilib. 2017-ci ilin avqustunda Bricenddə reyd zamanı böyük ölçüdə kokain və marixuana ələ keçirilib. Araşdırma zamanı polis müxtəlif şəkillərin olduğu telefon da tapıb. Şəkildə ovuc içində ekstazi göstərilib və bundan reklam kimi istifadə edilirdi. Qurğuda fotonun əməliyyatlar üçün istifadə edildiyini göstərən mesaj da aşkarlanmışdı.***

***Ekspertlər şəkildən barmaq izlərini götürə biliblər və bu izlər narkotik alveri ilə məşğul olan şəbəkəni aşkar etməyə kömək edib.***

***Cənubi Uels polisinin sözlərinə görə, "WhatsApp" şəklindən barmaq izi götürmə bir ilkdir. Onun sözlərinə görə,bu sosial şəbəkələrdə olan şəkillərin sübut kimi istifadə edilə biləcəyinin göstəricisidir. «Dilerlər tutulmamaq üçün texnologiyadan istifadə edirlər və biz də onların üsulundan istifadə etməliyik»,- deyə bildirilib.***

*****

Dubayda avtomobillərdə metal dövlət nömrə nişanları rəqəmsal qeydiyyat nişanları ilə əvəz ediləcək. "Tag to Connect" adlanan rəqəmsal nömrələr ağıllı ekrandır. "Belə nömrələr sürcüləri hər il xidmət mərkəzlərinə gəlib nömrələrin yenilənməsi ehtiyacından azad edəcək. Avtomobillərin qeydiyyatı isə texniki baxışdan sonra avtomatik yenilənəcək", - deyə Yol və Nəqliyyat İdarəsinin nümayəndəsi bildirib. Qeyd olunub ki, avtomobil sahibləri qeydiyyat nömrələrini mobil yükləmələr və ya idarənin saytı vasitəsilə yeniləyə biləcəklər.

*Natiq Cavadov*

# SAĞLAM OLAQ, QƏLƏBƏ QAZANAQ!

**DİN-in Baş Mühafizə İdarəsinin və Nərimanov Rayon Mühafizə İdarəsinin təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" şüarı altında baş idarənin idman kompleksində uşaqlar, yeniyetmələr və gənclər arasında əlbəyaxa döyüş növləri üzrə respublika çempionatı keçirilib.**




Əvvəlcə yarış iştirakçılarını və qonaqları salamlayan BMİ-nin təmsilçisi Tural Həsənov bildirdi ki, idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir, ölkəmizin beynəlxalq aləmdə tanınması və Olimpiya hərəkatına qoşulması geniş vüsət alıb. Möhtərəm Prezidentimiz tərəfindən idmana göstərilən ali diqqət, paytaxtımızda, eləcə də regionlarda bir çox Olimpiya komplekslərinin, müasir idman qurğularının tikilib istifadəyə verilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, Azərbaycanda beynəlxalq yarışların keçirilməsi bunu deməyə əsas verir ki, aparılan siyasətin bir hədəfi var: Sağlam gənclik və sağlam gələcək.

Baş idarə tərəfindən hər il idman yarışlarının keçirilməsini deyən T.Həsənov ötən il keçirilən tədbirin aprel şəhidlərinin əziz xatirəsinə, bu il isə bəşəriyyətin bəlasına çevrilən narkomaniyaya həsr olunduğunu diqqətə çatdırdı.

Qeyd olundu ki, narkomaniya ilə mübarizə tədbirlərində ən başlıca vasitə maarifləndirmədir. Zərərli vərdişlərdən qorunmaq üçün ən gözəl üsul, mübarizə metodlarından biri də idmandır.

Nərimanov RMİ-nin rəis müavini, polis



polkovnik-leytenantı Səlim Salmanlı bu gün polisin də sıralarında bir çox məşhur idmançıların yetişdiyini, onların müxtəlif beynəlxalq yarışlarda möhtəşəm qələbələr qazandıqlarını dedi və gələcəyimiz olan gənclərin təkcə idmanda deyil, digər sahələrdə də bayrağımızı ucaldacaqlarına inamını ifadə etdi. Dedi ki, polisin təşkilatçılığı ilə belə yarışların keçirilməsində əsas məqsəd gənclər arasında idmanın təbliğini genişləndirmək, nəticədə onları alkoqolizm və narkomaniya kimi zərərli vərdişlərdən uzaq tutmaqdır.

Yasamal Rayon Gənclər və İdman İdarəsinin nümayəndəsi də DİN BMİ-nin bu idman yarışına təşkilatçılıq etməsini idmana verilən töhfə kimi qiymətləndirdi.

Beynəlxalq Əlbəyaxa Döyüş Növləri Respublika nümayəndəliyinin prezidenti, əlbəyaxa döyüş növü üzrə dəfələrlə dünya, Avropa və ölkə çempionu, Nərimanov RMİ-nin əməkdaşı Səməd İbrahimov Azərbaycanda əlbəyaxa döyüş növünün inkişafına göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə təşəkkür etdi.

Sonra torpaqlarımız uğrunda şəhid olan oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Yarış dövlət himnimiz oxunduqdan sonra açıq elan olundu.

İdmançılar müxtəlif çəki dərəcələrində güclərini sınayıb qələbə uğrunda mübarizə apardılar.

Yeri gəlmişkən, tədbirdə idmana dəstək verən musiqiçi qonaqlardan Elxan Şirinovun ifaları yadda qaldı.

*Hafiz Təmirov,*
*polis mayoru*

## Aprelin 18-dən 24-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 710 cinayət qeydə alınmış, onların 142-si «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 61 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 186 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 16 nəfər, borclu şəxs qismində axtarışda olan 103 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 8 nəfər ölmüş, 52 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 63 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 180 nəfər saxlanılmışdır.

Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov və şəxsi heyəti rəis müavini Səhlab Bağırova əzizi
**MƏHƏMMƏD ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Cəbrayıl RPŞ-nin rəisi Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin kollektivi Maliyyə-Plan İdarəsinin əməkdaşı Afət Səfərovaya atası
**ARİF kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Tahir Quliyev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BNMİ Cənub Bölgəsində Regional Şöbəsinin rəisi İzzət Əsgərov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00